

# İslam klubşünaslığı tarixindən

**Çox fərəhləndirici haldır ki, mədəniyyət, konkret olaraq klubşünaslıq tarixi islamın inkişafı ilə əlaqədar islam dövləti olan Səudiyyə Ərəbistanında, Məkkədə yaradılmışdır. Düzdür, xristian dövlətlərindən bəzisində klub xarakterli müəssisələr yaradılmışdır.**

Lakin bunlar təlim-tərbiyə, ideya-siyasi, ideoloji ocaqlar deyil, qumarxana, zinaxana, tiryəkxana və sair neqativ hallar mərkəzləri olmuşlar. Xristian, bütpərəst ideyalar mərkəzlərindən fərqli olaraq islam klubşünaslıq tarixi daha mütərəqqi olmuşdur. Bunu islamın ilk tarixindən, 600-cü illərdən yaranmış klub, klub-yarmarka və qeyri klub tipli müəssisələrin yaranışı tarixi aydınca göstərir.

Bakının İslam mədəniyyəti mərkəzi olmasını, özümüzün islam dinində olmağımızı və islamın Məkkədən başlamasını nəzərə alsaq Məkkə klubşünaslığının inkişafı tarixinə az da olsa nəzər salmaq maraqlı olardı. Klub müəssisələrimiz dinimizə, mentalitetimizə, islami dəyərlərə, dövlətçiliyə qulluq etməlidir. İslam tarixinə nəzər salsaq görərik ki, klublar islam mərkəzi Məkkədə inkişaf yolu keçmişdir.

Məsələn, İslam tarixində göstərilir: "Həz. Həmzənin müsəlman olmasından bir neçə gün keçmişdir. Qüreyşlər "Darün Nedve" adlandırdıqları klublarında bir iclas çağıraraq vəziyyəti gözdən keçirdilər. Hz. Həmzənin müsəlman olması onları (müşrikləri) təşvişə salmışdır." Bildiyimiz kimi söhbət 600-cü ildən gedir. Deməli, 1400 il bundan qabaq Məkkədə "Darün Nedve" adlanan klub varmış, özü də bu klub xristianlarda olduğu kimi kef məclisləri deyilmiş, sosial problemləri müzakirə edərmiş. Hətta tarixi şəxsiyyət olan 2-ci xəlifə Ömərin də müsəlman olmamışdan qabaq Məkkədə 2-ci toplanış yeri olan "Darül Erkam" klubuna gəlməsi qeyd olunur. Deməli, bu klub da Məkkədə yaranıbdır.

Əvvəllər bütpərəst olan Ömər ibn Xəttabın böyük peyğəmbəri öldürmək istəməsi "Darül Erkam" klubunda müzakirə olunub və nəticədə Ömərin əziz peyğəmbərimizi öldürmək əvəzinə islamı qəbul etməsi, peyğəmbərin qaynatası olmaqla yanaşı islam dünyasının 40-cı müsəlmanı və 2-ci xəlifəsi olmağı prosesləri müzakirə olunmuşdur. Bununla yanaşı Kəbə də "Ukaz" deyilən klubda fəaliyyət göstərirdi ki, "Ukaz" klubunda verilən əmrlər xalqın inkişafına, sosial problemlərinin, mübahisələrinin həllinə xidmət edirdi. Müsəlman tarixində fəaliyyətə başlayan bu klublar 1400 il bundan qabaq ilk klub təşkilatı kimi islam dövlətində fəaliyyət göstərmişdir. Bizim dövlətimizin İs-

lam mərkəzi olması baxımından bu faktla qürur duyulmalıdır.

Bununla yanaşı ticarəti inkişaf etdirmək, qonşu dövlətlərlə əlaqə saxlamaq məqsədilə klub - yarmarkalar da təşkil edilmişdir. Bu klub-yarmarkalara Həbəşistan, İraq, Sudan, Suriya, Misir, İran və qeyri dövlətlərdən də ticarətə gəlirdilər ki, burada da ticarətlə yanaşı, islam dini təbliğ olunurdu. Bu yarmarka-klublardan ən məşhuru "Mecenne" və "Zülmecaz" klub-yarmarkaları idi. Bu faktın özü də onu göstərir ki, ilk yarmarkalar 1400 il bundan qabaq islam dünyasında fəaliyyətə başlamışdır. Çox xarakterik cəhət odur ki, ilk dəfə Məkkədə yaradılan "Darün-Nedve", "Darül Erkam", "Ukaz", "Mecenne" və "Zümecaz" klub yarmarkaları, xalqın problemlərinin həlli üçün toplantı yeri olmuşdur. Bizim üçün çox xoşdur ki, peyğəmbərimizin şairi Hassan da öz gözəl şeirlərini bu klublarda xalqa çatdırırdı. O, bir şair kimi islam əxlaqını vəsf edirdi.

Fərəhləndirici haldır ki, böyük peyğəmbərimiz Məhəmməd (s) özü yuxarıda saydığımız klubların, klub-yarmarkaların həm ilk üzvü, həm də rəhbəri olmuşdur. Yeri gəlmişkən qeyd etməliyik ki, islamın ilk şairlərindən Tufeyl, Sammit oğlu Süveyd, Züleyr, Nabiqa, Abu İzzə, Həsən İbn Sabit Kab kimi şairlər bu klubda yetişmişlər. Elə böyük peyğəmbərimizin bu klub və klub-yarmarkalardakı fəaliyyəti nəticəsində islam dünyaya yayılmışdır. Biz fəxrlə deyə bilərik ki, bu gün Bakının islam mərkəzi olmasında bu cür klubların fəaliyyətindən az da olsa bizə pay düşür.

İslam ədəbiyyatı və mədəniyyətində özünəməxsus yeri olan ilk müsəlmanlardan Sammit oğlu Süveyddinin bir şair kimi yetişməsində həmin islam klublarının böyük rolu olmuşdur. Sonralar şair Süveyiddin də xatırlayaraq bu klublardakı dərnəyin üzvü olması ilə fəxr etdiyini söyləmişdi.

İslamda Məhəmməd Peyğəmbərin "Akabe" də müxtəlif qəbilələrlə görüşü və onların islamı qəbul etməsi də tarixi bir faktdır.

Burada da "Akabe" auditoriyası tarixə düşmüş və bu klub da islamlaşmada böyük rol oynamışdır.

Bu klublar daim düzgün qərarları ilə tarixdə qalmışlar. Məsələn, "Darün Nedve" klubunda peyğəmbərimizi məhv etmək kimi toplantı da keçirilmiş, lakin bu baş tutmamışdır.

Eyni zamanda şairlərdən Züneyr və Nabiqanın da başına bu oyunu açmaq həmin klubda müzakirə edilmişdir. Apardığımız araşdırmalardan bu qənaətə gəlirik ki, bu gün hamımızın çox böyük hörmətlə yanaşdığımız dünyada birinci məscid olan Quba məscidindən başlayaraq klubların böyük rolu olmuşdur. Hələ hörmətli peyğəmbərimizin dövründə kasıblar, yoxsullar, kimsəsizlər üçün təşkil edilmiş "Ashab-ı Srəfa"da klub rolunu oynamışdır. Burada ilk dərnəklər yaradılmış, kasıblar burada məşğul olub az-çox pul qazana bilmişlər. Göründüyü kimi, bu klub da xeyirxahlıqla məşğul olmuşdur. Bu klubun məşğələlərində məşğuliyyətlər yaradılmışdır.

Elə böyük peyğəmbərimiz 622-ci ildə Məkkədən Mədinəyə hicr etdikdən sonra da (hicri tarix bu hadisə ilə bağlıdır) Mədinədə müharibələrlə (məkkəlilərlə) Ensarlar (yerli mədinəlilər) arasında qardaşlığı, dostluğu da klublardakı yığıncaqlarda əldə edə bilmişdir. Göründüyü kimi, İslam klubşünaslığı tarixində klublar müasirliyi, irəliləyişi, tərəqqini istər siyasi, istərsə də iqtisadi inkişafı təbliğ etmişdir.

İlk islam klubları, klub-yarmarkaları xalqın mənəviyyatının yüksəldilməsini hər hansı bir yolla təbliğ etməyə çalışmışdır. Qeyd etməliyik ki, bu klub xarakterli müəssisələr ölkənin ticarət əlaqələrində ilkin ilham mənbəyi olmuşdur. Həmin klub müəssisələrinin tədbirləri də dövrün tələbinə görə proqnozlaşdırılmış və proqramlaşdırılmışdır.

Sevindirici haldır ki, bu klub və klub-yarmarkaların ilhamverici mənbəyi Böyük İslam Peyğəmbəri Məhəmməd (ə.s) peyğəmbər olmuşdur. Ona görə də klub müəssisələri müqəddəs ocaq sayılmış və bundan sonra da müqəddəs ocaq olaraq qalmışdır.

Bu müəssisələrdə peyğəmbərimizin qoyduğu yolla - dövlətçilik, qəhrəmanlıq, vətənpərvərlik, qardaşlıq, dostluq, milli ənənələrə, adətlərə hörmət və sair əsas meyar götürülməli, Bakının islam mərkəzi olmasını əldə rəhbər tutaraq, islami dəyərlərə istinadən, dövlət qanunları əsasında təbliğat aparılmalıdır.

Bunun üçün klublarda bədii özfəaliyyət kollektivlərinin, ələlxüsus dram, nitq mədəniyyəti dərnəklərinin repertuarına, metodika kabinetlərinin tərtibinə və fəaliyyətinə, rüblük və illik planların düzgün tərtibinə və sair klub tədbirlərinə diqqəti artırmaq lazımdır.

**Çalışmaq lazımdır ki, klub işçiləri turizm bazalarında, fermer təsərrüfatlarında, təhsil müəssisələrində və sair tamaşaçı auditoriyasında olarkən islami dəyərlərdən istifadə etməklə dövlət prinsiplərini xalq, kütlə arasında təbliğ edə bilsinlər. Bu klub işçilərinin- azərbaycanlıların, ələlxüsus bakılıların İslam mərkəzinin sakinləri olmalarına ən böyük sübut və töhfə olardı.**

● **Zabit CAVADOV,**
***kulturoloq***